Sevda Məmməd qızı Seyidova
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutu "Demoqrafiya və məşğulluq problemləri"
şöbəsi aparıcı, elmi işçi, i.f.d.
UOT: 31;33;338.; JEL: A11; F63; I38.

Azərbaycan Respublikasında müxtəlif sosial-demoqrafik qruplardan olan məşğul əhalinin təhsil quruluşu

Xülasə

Məqalədə iş qüvvəsinə tələb və onun təklifi arasında əlaqə, məşğul əhalinin təhsil səviyyəsi, kadrların peşə hazırlığı məsələləri, əmək qabiliyyətli əhalinin demoqrafik yüklənməsinin dinamikası, məşğul əhalinin təhsil səviyyəsi və yaş qrupları üzrə bölgüsü, iqtisadi fəal əhalinin strukturunda baş verən dəyişikliklərin məşğul və işsiz əhalinin təhsil səviyyəsinə təsiri və digər məsələlər tədqiq edilmişdir. Müəllif, müxtəlif sosial-demoqrafik qruplardan olan məşğul əhalinin təhsil quruluşunu araşdıraraq, bu sahədə müəyyən problemlərin qalmasını göstərmişdir.

Açar sözlər: *əmək bazarı, məşğulluq, kadrların peşə hazırlığı, demoqrafik qruplar, təhsil səviyyəsi*

Giriş

Müxtəlif sosial-demoqrafik qruplardan olan məşğul əhalinin təhsil səviyyələrində işçi qüvvəsinə tələbin dinamikası ilə onun təklifi arasındakı uyğunsuzluq ən çox rast gəlinən problemlərdən biridir. Əmək bazarında tələb və təklifin uyğunsuzluğu mövcud iqtisadi potensialdan tam istifadə olunmamasını göstərir. İş qüvvəsinə tələb və onun təklifi arasındakı kəmiyyət uyğunsuzluğu ölkəmizdə işsizliyin mövcudluğu ilə ifadə olunur. Bu səbəbdən, ölkənin potensial ümumi daxili məhsulunun müəyyən bir hissəsi istehsal olunmur. İşçi qüvvəsinə tələbin və təklifin keyfiyyət xarakteristikalarının tam üst-üstə düşməməsinin nəticəsində əmək məhsuldarlığında itkilər, o cümlədən müvafiq xüsusiyyətlərin dəyişdirilməsi (təkmilləşdirilməsi) zərurəti ilə əlaqədar həm işçilər, həm də işəgötürənlər üçün müxtəlif əlavə xərclər yaranır. Belə ki, regional xarakteristikalar uyğun gəlmirsə, bu, əlavə nəqliyyat xərclərinə, təhsil xarakteristikaları uyğun gəlmirsə, bu, ilk növbədə, əlavə olaraq, yenidən hazırlıq və ixtisasartırma xərclərinin yaranmasına gətirib çıxarır.

Əsas mətn

Tədqiqatlar göstərir ki, Azərbaycanda əhalinin orta illik sayı müsbət dinamika ilə inkişaf edir. Belə ki, əgər 2010-cu ildə əhalinin sayı 9054.3 min nəfər idisə, 2021-ci ildə bu rəqəm 10137.8 min nəfərə çatmışdır. Beynəlxalq Əmək Təşkilatının metodologiyasına əsasən, bütün işsizlər nəzərə alınmaqla, iqtisadi fəal əhalinin sayı 2010-cu ildə 4587.4 min nəfər idi. 2021-ci ildə isə bu rəqəm artaraq, 5303.9 min nəfərə çatmışdır. Məşğul əhalinin sayında isə fərqli dinamika müşahidə olunur. Əgər 2010-2019-cu illərdə məşğul əhalinin sayı 4329.1 min nəfərdən 4938.5 min nəfərə qədər artmışdırsa, 2020-ci ildə bu göstərici bir qədər azalaraq, 4876.6 min nəfər təşkil etmişdir ki, bu da dünyada baş verən koronavirus pandemiyasının ölkəmizə də təsiri ilə bağlıdır. Lakin artıq 2021-ci ildə məşğul əhalinin sayı 4988.2 min nəfərə qədər artmışdır ki, bu da 2019-cu ilin rəqəmlərindən 49.7 min nəfər və ya 1.01% çoxdur. İşsiz əhalinin sayında da fərqli meyllər var. Əgər 2010-cu ildə məşğulluq idarəsində qeydiyyatdan keçmiş işsizlərin sayı 258.3 min nəfər idisə, 2015-ci ildə bu rəqəm 243.7 min nəfərə qədər azalmışdır. Sonrakı illərdə də fərqli dinamika mövcud olmuş, 2017-ci ildə bir qədər artaraq, 251.7 min nəfər, 2018-ci ildə - 253.8 min nəfər olmuşdur. 2019-cu ildə yenidən azalma baş vermiş və bu göstərici 251.6 min nəfər olmuşdur. 2020-ci ildə, koronavirus pandemiyası ilə əlaqədar olaraq, işsizlərin sayı artmış və 375.9 min nəfərə çatmışdır. Lakin 2021-ci ildə bu göstərici 315.7 min nəfərə qədər azalmışdır. Müasir dünya iqtisadiyyatına

inteqrasiya olunmaq üçün, Azərbaycanda kadrların peşə hazırlığına xüsusi önəm verilməlidir. Bu istiqamətdə müəyyən işlər görülsə də, hələ də həllini tapmayan problemlər qalmaqdadır. İqtisadiyyatın bütün sahələrini inkişaf etdirmək lazımdır. Yalnız yeni müasir istehsal sahələri yaradaraq, əhalini işlə səmərəli təmin etmək olar. Bunun üçün yeni təfəkkürlü kadrlara böyük ehtiyac var. Statistik məlumatlardan göründüyü kimi, 2010-cu ildə cəmi 4792 nəfər peşə hazırlığına cəlb olunmuşdur. 2015-ci ildə peşə hazırlığına cəlb olunanların sayı 7453 nəfərə qədər artmışdır. Lakin 2017-ci ildə cəmi 4502 nəfər peşə hazırlığına cəlb edilmişdir ki, bu da 2015-ci ilin göstəricisinin cəmi 60.4%-ni təşkil edir. Növbəti 2018-ci ildə peşə hazırlığına göndərilənlərin sayında 5629 nəfərə qədər artım olsa da, 2019-cu ildə yenidən 5130 nəfərə qədər azalma müşahidə edilir. 2020-ci ildə peşə hazırlığına göndərilənlərin sayı yenidən kəskin azalaraq, 3478 nəfər təşkil etmişdir ki, bu da əvvəlki ilə nisbətən 67.8% deməkdir. 2021-ci ildə cüzi artım müşahidə olunur.

İxtisaslarını artırmış rəhbər işçilərin və mütəxəssislərin sayını təhlil edərkən, görürük ki, burada da fərqli dinamika müşahidə olunur. Əgər 2010-cu ildə 22326 nəfər rəhbər və mütəxəssis ixtisasartırma kurslarına cəlb olunmuşdursa, 2017-ci ilə qədər onların sayı tədricən azalaraq, 11499 nəfər təşkil etmişdir. Növbəti iki ildə bir qədər artım olsa da, 2020-ci ildə yenidən azalma müşahidə olunur ki, bu da ölkədə qoyulan karantin qadağaları ilə əlaqədərdir. 2021-ci ildən ixtisasartımı kurslarına cəlb olunan rəhbər işçilərin və mütəxəssislərin sayı yenidən bir qədər artaraq, 14604 nəfər təşkil etmişdir. İşçilərin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, onların yeni ixtisasa yiyələnməsi və ixtisasının artırılması üzrə çəkilən xərclərə nəzər salsaq, görərik ki, bu məqsədlərlə 2010-cu ildə 5.8 mln.manat vəsait xərclənmişdir. Növbəti illərdə bu göstərici fərqli dinamikaya malik olaraq, 2019-cu ildə 11.6 mln.manat olmuşdur. Lakin 2020-ci ildə xərclərin həcmi azalaraq, 5.8 mln.manat təşkil etmişdir. 2021-ci ildə ildə isə yenidən artım müşahidə olunur və xərclər 9.2 mln.manata qədər yüksəlmişdir.

İşçilərin peşə hazırlığının artırılmasına çəkilən xərclərin ümumi əmək xərclərində xüsusi çəkisi 2010-cu ildə 0.09 %; 2015-ci ildə - 0.11%; 2018-ci ildə isə - 0.10% olmuşdur. Lakin, sonrakı illərdə azalaraq, 2020-ci ildə - 0.04%; 2021-ci ildə isə - 0.05% təşkil etmişdir. 2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının yekun məlumatları əsasında 2019-2022-ci illər üzrə Əhalinin orta illik sayı, İqtisadi fəal əhalinin sayı, Məşğul əhalinin sayı, İşsiz əhalinin sayı üzrə Statistika Komitəsinin Statistik məcmuəsində göstərilən məlumatlar yenidən hesablanmışdır, lakin biz yalnız 2022-ci il üzrə yenilənmiş məlumatları göstəririk, cünki yeni və köhnə statistik məcmuələrdə göstərilən məlumatların arasında fərq cüzidir.

Cədvəl 1.

2015-2022 – ci illərdə Azərbaycan Respublikasında əmək qabiliyyətli əhalinin demoqrafik yüklənməsinin dinamikası

	Əmək qabiliyyətli yaşadək əhali, min nəfər	Əmək qabiliyyətli yaşda əhali, min nəfər	Əmək qabiliyyətli yaşdan yuxarı əhali,min nəfər	Ümumi demoqrafik yüklənmə əmsalı,%	
				Potensial yüklənmə əmsalı, %	Qocalarla yüklənmə əmsalı, %
2015	2152,7	6869,6	570,7	31,3	8,3
2020	2256,7	7090,5	719,9	31,8	10,2
2021	2260,8	7101,9	756,4	31,8	10,7
2022	2250,6	6471,4	799,9	34,8	12,4

Mənbə: Cədvəl müəllif tərəfindən Azərbaycan Respublikasinin Dövlət Statistika Komitəsi. Azərbaycanin demoqrafik göstəriciləri. Statistik məcmuə. Bakı – 2022-2023, səh.52 mənbəyi əsasında hazırlanmışdır.

Araşdırma göstərir ki, qocalma səviyyəsinin artmasının əsas səbəbləri ölkədə doğumun aşağı düşməsi, gənc yaş qrupunda olan əhalinin xüsusi çəkisinin azalması, doğulanda gözlənilən ömür uzunluğunun artmasıdır. Cədvəldən də göründüyü kimi, 2015-2022-ci illərdə Azərbaycan Respublikasında həm potensial yüklənmə əmsalı, həm də qocalarla yüklənmə əmsalı yüksələn dinamika ilə artır.

Cədvəl 2.

Azərbaycan Respublikasında əmək qabiliyyətli yaşda iqtisadi fəal əhalinin məşğulluq səviyyəsi

	Əmək qabiliyyətli yaşda iqtisadi fəal əhali	Məşğul əhali	Məşğulluq səviyyəsi, %
2015	4915.4	4671.6	95
2020	5252,5	4876.6	92.8
2021	5303.9	4988.2	94
2022	5194,4	4901.1	94.4

Mənbə: Cədvəl müəllif tərəfindən Azərbaycan Respublikasinin Dövlət Statistika Komitəsi. Əmək bazari. Statistik məcmuə. Bakı - 2016-2022, səh.15-16 mənbəyi əsasında hazırlanmışdır.

Araşdırmaların nəticələri göstərir ki, tədqiq edilən dövrdə ölkə iqtisadiyyatında əmək qabiliyyətli yaşda iqtisadi fəal əhalinin artım templəri məşğul əhalinin artım temrlərindən daha yuksək olmuşdur. Həmin dövr ərzində məşğulluğun səviyyəsi 0.6% bəndi azalmışdır. Həm işçi qüvvəsinə tələbin, həm də onun təklifinin keyfiyyət strukturunu müəyyən edən bir çox xüsusiyyətlər var ki, onlara regional, sahəvi (iqtisadi fəaliyyət növlərinə görə), peşə, təhsil, sosial-demoqrafik xüsusiyyətləri aid etmək olar. Bunların arasında işçi qüvvəsinin təhsil xüsusiyyətləri mühüm yer tutur. Dünya təcrübəsi və daxili əmək bazarının yerli tədqiqatlarının nəticələri göstərir ki, peşə - ixtisas və təhsil xüsusiyyətləri arasındakı uyğunsuzluq əmək bazarında struktur disbalansının ümumi struktur səviyyəsinə daha çox təsir göstərir. Bu xüsusiyyətlərin tam üst-üstə düşməsi müəyyən dərəcədə nəzəri məsələdir, təcrübədə isə bu və ya digər dərəcədə fərqlənmədən söhbət gedə bilər. Nəticə etibarilə, təhsilin müxtəlif səviyyələrində işçi qüvvəsinə tələbat və onun təklifi arasında daha yüksək səviyyədə koordinasiyanın təmin edilməsi Azərbaycanda əmək bazarında struktur disbalansı problemini əhəmiyyətli dərəcədə yumşaldacaqdır. İş qüvvəsinin dinamikasını və təhsil strukturunu müəyyən edən amillərin üzə çıxarılması və təhlili məşğulluq və əmək bazarı parametrlərinin daha dəqiq perspektiv qiymətləndirmələrinin aparılmasına kömək edəcəkdir. Ölkə iqtisadiyyatında ümumi və xüsusilə regional əmək bazarlarında iş qüvvəsinə tələbin keyfiyyət xüsusiyyətləri ilə onun təklifi arasındakı uyğunsuzluq səbəbindən həm iş qüvvəsinə təmin olunmamış tələb (vakant iş yerləri), həm də təmin edilməmiş təklif (işsizlik) eyni vaxtda mövcuddur.

İqtisadiyyatda mövcud olan meyllər bu gün də və gələcəkdə də Azərbaycanın əmək bazarının struktur problemlərinin daha da kəskinləşməsinə səbəb ola bilər. Onların yumşaldılması, habelə buna yönəlmiş sosial-iqtisadi siyasət tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi üçün təhsil sisteminin inkişaf dinamikası və müxtəlif sosial-demoqrafik qruplardan olan məşğul əhalinin təhsil xüsusiyyətləri nəzərə alınmaqla məşğulluğun və əmək bazarının əsas parametrlərinin dinamikasının perspektiv qiymətləndirilməsi zəruridir. Dövlət Statistika Komitəsinin məlumatlarından göründüyü kimi, İqtisadi fəal əhalinin strukturunda baş verən dəyişikliklər məşğul və işsiz əhalinin təhsil səviyyəsinin daim yüksəlməsindən xəbər verir. 2015-ci ildə iqtisadi fəal əhalinin 16.3%-nin ali təhsili var idi, 2022-ci ildə isə iqtisadi fəal əhalinin 16.6%-nin ali təhsili var. Müvafiq olaraq, peşə təhsili olan əhalinin də xüsusi çəkisi stabil olaraq artır, ali (peşə) təhsili olmayan əhalinin həm sayı, həm də xüsusi

çəkisi ardıcıl olaraq azalır. Məşğul əhalinin təhsil səviyyəsi və yaş qrupları üzrə bölgüsünü təhlil edərkən, görürük ki, 2015-ci ildə məşğul əhalinin sayı 4671.6 min nəfər olmuşdur. Onlardan ali təhsillilərin sayı 763.3 min nəfər olmuşdur ki, bu da həmin ildə məşğul əhalinin16.3%-ni təşkil edir. Məşğul əhalinin tərkibində orta ixtisas təhsillilərin sayı 497.5 min nəfər olmuşdur ki, bu da məşğul əhalinin 10.6%-dir. Peşə təhsillilərin sayı isə 256.0 min nəfər olmuşdur ki, bu da məşğul əhalinin 5.5%-dir. 2015-ci ildə məşğul əhalinin tərkibində tam orta təhsillilər üstünlük təşkil edir. Məşğul əhalinin 2015-ci ildə sayı 4091.1 min nəfər təşkil edirdisə, onun 2915.5 min nəfəri tam orta təhsillilərdir ki, bu da cəmi məşğul əhalinin 59.5 %-dir. 2022-ci ildə məşğul əhalinin tərkibində tam orta təhsillilər üstünlük təşkil edir. Məşğul əhalinin 2022-ci ildə sayı 4901.1 min nəfər təşkil edirdisə, onun 2915.5 min nəfəri tam orta təhsillilərdir ki, bu da cəmi məşğul əhalinin 59.5 %-dir. Təhsil səviyyəsinə görə ikinci iri kateqoriya – ali təhsillilərdir ki, onlar da cəmi məşğul əhalinin 824.1 min nəfərini, yəni 16.8%-ni təşkil edir. Növbəti ən iri əhali kateqoriyası - orta ixtisas təhsili olan əhalidir ki, onların da 2022-ci ildə məşğul əhalinin tərkibində sayı 548.8 min nəfər, yəni 11.2% təşkil etmişdir. Peşə təhsillilərin sayı isə 278.4 min nəfər olmuşdur ki, bu da məşğul əhalinin 5.7%-dir. Məşğul əhalinin yaş qrupları üzrə təhsil səviyyəsini araşdıranda görürük ki, bütün yaş kateqoriyaları üzrə təhsili olmayanların sayı çox azdır. Məşğul əhalinin 25-29 yaş kateqoriyası üzrə alı təhsillilərin sayı üstünlük təşkil edir. Bu yaş kateqoriyası üzrə mövcud olan 667.4 min nəfər məşğul əhalinin 168.9 min nəfəri (25.3%) ali təhsillidir; 78.9 min nəfəri (11.8%) – orta ixtisas təhsilli; 24.7 min nəfəri (3.7%) isə peşə təhsillidir.

Ali təhsillilərin sayı çox olan daha bir əhali kateqoriyası 55-59 yaşda olanlardır ki, bu kateqoriya üzrə məşğul əhalinin sayı 371.2 min nəfər, ali təhsillilərin sayı – 108.2 min nəfər (29.1%), orta ixtisas təhsili olanların sayı 73.7 min nəfər (19.8%), peşə təhsili olanların sayı isə - 26.3 min nəfərdir (7.1%). 2015-2022-ci illər üzrə statistik məlumatların təhlili deməyə əsas verir ki, məşğul əhalinin bütün kateqoriyaları üzrə ali təhsili, orta ixtisas təhsili və peşə təhsili olanların sayı artmışdır. Statistik məlumatlara əsasən, 2022-ci ildə Azərbaycanda cəmi iqtisadi fəal qadınların sayı 2508.7 min nəfərdir. Onlardan 361.8 min nəfəri (14.4%) – ali təhsilli, 355.4 min nəfəri (14.2%) – orta ixtisas təhsilli, 99.1 min nəfəri (3.9%) – peşə təhsilli, 1471.4 min nəfəri (58.6%) – tam orta təhsilli, 88.5 min nəfəri (3.5%) – ümumi təhsilli, 31.7 min nəfəri (1.3%) – ibtidai təhsilli, 0.8 min nəfəri (0.03%) isə - təhsili olmayan əhali qrupuna aiddir. İqtisadi fəal qadınların tərkibində həm sayına, həm də ali təhsil səviyyəsinə görə, 25-29 yaş kateqoriyasına aid qadınlar üstünlük təşkil edirlər. Cəmi iqtisadi fəal qadınların tərkibində 25-29 yaşda olan qadınların sayı 353.6 min nəfər (14.1%) olmuşdur. 25-29 yaşda olan iqtisadi fəal qadınların 81.6 min nəfəri (23.1%) - ali təhsilli, 59.7 min nəfəri (16.9%) - orta ixtisas təhsilli, 12.5 min nəfəri (3.5%) – peşə təhsilli, 176.2 min nəfəri (49.8%) – tam orta təhsilli, 22.7 min nəfəri (6.4%) – ümumi təhsilli, 0.8 min nəfəri (0.2%) – ibtidai təhsilli qadınlardır. İqtisadi fəal qadınların 0.1 min nəfərinin təhsili yoxdur. 2015-2022-ci illər üzrə statistik məlumatların təhlili deməyə əsas verir ki, məşğul qadınların bütün yaş kateqoriyaları üzrə ali təhsili, orta ixtisas təhsili və peşə təhsili olanların sayı artmışdır. Statistik məlumatlardan göründüyü kimi, 2015-ci ildə Azərbaycanda peşə hazırlığından 7453 nəfər keçmişdir. Onların böyük əksəriyyəti, yəni 4029 nəfəri – yenidən hazırlananlardır. İxtisas artımında 3888 nəfər iştirak etmişdir. Peşə hazırlığı keçmiş və ixtisasını artırmış işçilərin ümumi sayından 11341 nəfər təhsil alanlardır. Peşə hazırlığı və ixtisas artırma kurslarından bilavasitə müəssisələrdə keçənlərin sayı 4164 nəfər olmuşdur. 2015-ci ildə 33 nəfər xaricdə ixtisasartırma və peşə hazırlığından keçmişdir. Təhsil müəssisələrində peşə hazırlığı keçənlərin sayı 4002 nəfər olmuşdur. Həmin il ixtisasartırma institutlarında 218 nəfər peşə və

ixtisaslarını təkmilləşdirmişdirlər. Cəmi 2015-ci ildə peşə hazırlığını keçənlərin 440 nəfəri qadındır. Növbəti illərdə isə peşə hazırlığını keçən kadrların sayı kəskin azalmışdır. 2018-ci ildə peşə hazırlığını 5629 nəfər, 2019-cu ildə - 5130 nəfər, 2020-ci ildə - 3478 nəfər keçmişdir. 2021-ci ildə peşə hazırlığını keçənlərin sayı bir qədər artaraq, 37136 nəfər təşkil etmişdir. 2022-ci ildə yenidən bu göstərici artaraq, 5372 nəfər olmuşdur. Lakin, 2015-ci ildən fərqli olaraq, 2022-ci ildə yenidən hazırlananların sayı yalnız 601 nəfər olmuşdur. İxtisaslarını artıranlar və peşə hazırlığı keçmiş işçilərin ümumi sayından təhsil alanların sayı da kifayət qədər artaraq, müvafiq olaraq, 3781 və 9153 nəfər olmuşdur. 2015-ci illə müqayisədə, 2022-ci ildə bilavasitə müəssisələrdə peşə-ixtisas hazırlığı keçənlərin sayı azalaraq, cəmi 2715 nəfər olsa da, xarici ölkələrdə ixtisas artıranların sayı artaraq,100 nəfər təşkil etmişdir.

Ölkədə 2022-ci ildə təhsil müəssisələrində peşə-ixtisaslarını artırmış kadrların sayı bir qədər artaraq, 1019 nəfər olmuşdur. İxtisasartırma institutlarında ixtisaslarını artıranların sayı 2015-2022-ci illər ərzində dəyişkən dinamikaya malik olaraq, 2022-ci ildə 399 nəfər olmuşdur. Həmin ildə ixtisasartırma kurslarında 4920 nəfər peşə-ixtisasını artırmışdır. Cəmi 2022-ci ildə peşə hazırlığını keçənlərin 548 nəfəri qadındır. İxtisaslarını artıranların tərkibində mütəxəssislərin xüsusi çəkisi yüksəkdir. Əgər 2015-ci ildə ixtisaslarını artıranların tərkibində rəhbər işçilərin xüsusi çəkisi 21.1% idisə, 2020-ci ildə bu göstərici 7.1%-ə qədər azalmışdır. 2022-ci ildə bu göstərici yenidən artaraq, 22% olmuşdur.

Qadınların Dövlət Məşğulluq Agentliyinin yerli qurumları tərəfindən peşə təliminə göndərilənlər arasında xüsusi çəkisi yüksəkdir. Bu göstərici 2015-ci ildə 41.1%, 2019-cu ildə isə 62.4% olmuşdur. 29 yaşına qədər gənclərin də Dövlət Məşğulluq Agentliyinin yerli qurumları tərəfindən peşə təliminə göndərilənlər arasında xüsusi yüksək olmuşdur. Əgər 2015-ci ildə bu rəqəm 71.5% idisə, 2019-cu ildə o bir qədər azalaraq, 42.9% olmuşdur. Dövlət Statistika Komitəsi tərəfindən 2020-2022-ci illərə aid məlumatlar göstərilmir. Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında işsiz statusu verilmiş şəxslərin sayı illər üzrə fərqli dinamikaya malik olsa da, 2019-cu ildə kəskin artaraq, 81272 nəfərə çatmışdır. Dövlət Statistika Komitəsi tərəfindən 2020-2022-ci illər üzrə Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında işsiz statusu verilmiş şəxslərin sayına aid məlumatlar göstərilmir. Təhlil edilən dövr ərzində hər bir il üçün işə düzəldilənlərin sayı işsiz statusu verilənlərin sayından çoxdur. Yəni, Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarına müraciət edənlərin böyük bir hissəsi işlə təmin edilirlər. Digərlərinə isə işsiz statusu verilərək, müavinətlər təyin edilir. Məsələn, 2015-ci ildə 28877 nəfərə işsiz statusu verilmiş, 28936 nəfər isə işlə təmin edilmişdir. İşçi qüvvəsinə nisbətdə, işsiz statusu verilmiş şəxslərin sayı 0.59% olmuşdur. 2018-ci ildə işsiz statusu 20088 nəfərə verilmiş, 51774 nəfər isə işlə təmin edilmişdir. İşçi qüvvəsinə nisbətdə, işsiz statusu verilmiş şəxslərin sayı 0.39% olmuşdur. 2019-cu ildə də bu meyllər davam edir. 81272 nəfərə işsizlik statusu verilmiş, 103028 nəfər isə işlə təmin edilmişdir. İşçi qüvvəsinə nisbətdə, işsiz statusu verilmiş şəxslərin sayı 1.61% olmuşdur. 2020-ci il üzrə işsizlik statusu verilmiş şəxslərin sayı barədə məlumatlar olmasa da, həmin il üzrə işə düzəldilmiş şəxslərin sayı 96285 nəfər olmuşdur. Statistik məlumatlardan göründüyü kimi, 2015-ci ildə peşə təlimlərinə 4147 nəfər göndərilmişdir. Lakin sonrakı illərdə bu göstərici dəyişkən dinamikaya malik olmuş və əsasən azalmaya meyillilik göstərmişdir. Belə ki, 2018-ci ildə peşə təliminə 2559 nəfər göndərilmiş, 2019-cu ildə onların sayı bir qədər artaraq, 3168 nəfər olmuş, lakin 2020-ci ildə kəskin azalaraq, 1014 nəfər təşkil etmişdir. Lakin işçi qüvvəsinə olan tələbatı əks etdirən rəqəmlərə nəzər saldıqda, görürük ki, bu sahədə görüləsi işlər hələ çoxdur. Əgər 2015-ci ildə 12959 nəfər işçi tələb olunurdusa, növbəti illərdə tələbat artaraq, 2019-cu ildə 17360

nəfər təşkil etmişdir. 2020-ci ildə bu rəqəm 13870 nəfərə qədər azalsa da, həmin ildə peşə təliminə göndərilən işçilərin sayından dəfələrlə (13.7 dəfə) çoxdur.

Nəticə

İşsizliyə görə müavinət alanların sayında da fərqli dəyişikliklər müşahidə olunur. Əgər 2015-ci ildə 1543 nəfər müavinət alırdısa, 2017-ci ildə bu rəqəm 4.5 dəfə ataraq, 6974 nəfər olmuşdur. Lakin sonrakı illərdə kəskin azalma baş vermiş və 2018-ci ildə işsizliyə görə müavinət alanların sayı 540 nəfər olmuşdur. 2020-ci ildə bu rəqəm bir qədər artsa da, sonrakı illər üzrə məlumatlar göstərilməyir. Bu gün təhsil iqtisadi inkişafın əsas amillərindən biridir. Əmək bazarı və işçilərin təhsil səviyyəsi bir biri ilə sıx əlaqədədir. Beləlikə, Azərbaycanın əmək bazarında mövcud olan problemlər kəmiyyət göstəriciləri ilə deyil, keyfiyyət göstəricilərilə bağlıdır. Belə bir nəticəyə gəlmək olar ki, ali təhsilli, peşə təhsilli mütəxəssislərin sayının artması və ixtisası olmayan işçilərin sayının azalması müşahidə edilir. Eyni zamanda, iqtisadi sahələrin mütəxəssislərlə təmin edilməsi heç də qənaətbəxş deyil. Ali təhsilli məşğul əhalinin sayının artmasını və peşə təhsili olmayan məşğulların sayının azalmasını müsbət meyl hesab etmək olar, lakin iqtisadi fəaliyyət sahələri üzrə mütəxəssislərlə təmin olunmada müəyyən problemlər qalmaqdadır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası/ - Bakı: 2022, 453 s. https://e-qanun.az/framework/50013
2. Azərbaycan Respublikası Statistika Komitəsi. Azərbaycanın demoqrafik göstəriciləri. https://www.stat.gov.az/source/demoqraphy/
3. Azərbaycan Respublikası Statistika Komitəsi. Azərbaycanın statistic göstəriciləri 2023. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
4. Şahbaz Muradov. "Azərbaycan Respublikasının demoqrafik inkişafı: tarixi dəyişiklikləri, yeni meyllər, problemlər" (1828-2020-ci illər). Bakı, "Elm və Bilik" nəşriyyatı. 2021-ci il.
5. Azərbaycan Respublikasının demoqrafik inkişafı: Tarixi dəyişikliklər, yeni meyllər, problemlər. Bakı – 2021.
6. Костина Е.Ю., Орлова Н.А. Рынок труда и построение профессиональной карьеры студентами // Высшее образование в России. 2015. № 11.

Севда Мамед кызы Сеидова

Структура образования занятого населения из различных социально-демографических групп в Азербайджанской Республике

Резюме

В статье рассмотрены взаимосвязь спроса на рабочую силу и ее предложения, уровень образования занятого населения, вопросы профессиональной подготовки кадров, динамика демографической нагрузки работающего населения, распределение занятого населения по уровню образования и возрастным группам, влияние изменений в структуре экономически активного населения на образовательный уровень занятого и безработного населения и другие вопросы. Автор, исследовав образовательную структуру занятого населения из разных социально-демографических групп, показал, что в этой сфере сохраняются определенные проблемы.

Ключевые слова: *рынок труда, занятость, профессиональная подготовка кадров, демографические группы, уровень образования.*

Sevda Mammad Seyidova

Educational structure of the employed population from different socio-demographic groups in the Republic of Azerbaijan

Summary

The article examines the relationship between the demand for labor and its supply, the level of education of the employed population, issues of professional training, the dynamics of the demographic burden of the working population, the distribution of the employed population by level of education and age groups, the impact of changes in the structure of the economically active population on the educational level of the employed and unemployed population and other issues. The author, having examined the educational structure of the employed population from different socio-demographic groups, showed that certain problems remain in this area.

Key words: *labor market, employment, professional training, demographic groups, level of education.*

Elmi redaktor: i.e.d. Y.Məmmədov
Daxil olub: 13.11.2023.
Çapa qəbul olunub: 24.11.2023.